# "QARABAĞ MÜHARİBƏSİNİN QƏHRƏMAN QADINLARI"

***Tanınmış yazıçı-jurnalist Zemfira Məhərrəmlinin bu yaxınlarda Sankt-Peterburqda "Leyla" nəşriyyatında rus dilində çapdan çıxan kitabı belə adlanır. Kitab aktual mövzuya-xalqımızın erməni işğalçıları ilə mübarizəsinə, torpaqlarımızın azad edilməsinə və cəsur qadınlarımızın bu müharibədə kişilərlə çiyin-çiyinə döyüşmələrinə həsr olunmuşdur.***

Yeni kitab müəllifin Azərbaycanın qəhrəman qızları barədə trilogiyasının ("Qızlar döyüşə gedirlər", "Qarabağda qanlı müharibə", "Qırx qız haqqında dastan") məntiqi davamıdır. Müəllif qəhrəmanlarından hər birinin taleyindən məhəbbət və səmimiyyətlə söhbət açır. Z.Məhərrəmli portret oçerklərində və sənədli hekayələrində Azərbaycan qadınının - ana, bacı və qızlarımızın ümumiləşdirilmiş obrazını yaratmışdır.

Yeni kitab Azərbaycan xalqının işğal altındakı əzəli torpaqlarını qaytarması uğrunda bir növ mübarizə salnaməsidir. Kitabın qəhrəmanlarını bir müqəddəs məqsəd birləşdirir: Ermənistan təcavüzkarları ilə müharibədə qələbəni yaxınlaşdırmaq, işğal olunmuş torpaqlarımızın azad edilməsi üçün var qüvvəni əsirgəməmək. Kitabda döyüşçü qadınlarımızın fotoşəkilləri, habelə, müəllifin özünün cəbhəyanı bölgələrə səfərləri zamanı çəkilmiş fotoşəkillər verilmişdir.

Tarix XX əsrin sonlarında Azərbaycan cəmiyyətini və cəmiyyətimizin əhəmiyyətli bir hissəsini təşkil edən Azərbaycan qadınlarını ağır sınaqlara çəkdi. Mənfur ermənilərin xaricdəki havadarlarının köməyi ilə Azərbaycana qarşı əsassız ərazi iddialarına etiraz olaraq, 1988-ci ilin 17 noyabrında milyonlarla vətəndaşımız hazırda Azadlıq meydanı adlanan məkana axışdı. Azərbaycan qadınları da müstəqillik yollarında gedən mübarizələrin ön sıralarında dayandılar. 1988-ci ildən respublikada cərəyan edən mürəkkəb proseslərdə qadınlar kişilərlə bərabər iştirak edirdilər. O tarixi günlərdə milli-azadlıq hərəkatında fəal iştirak edən, gecələri soyuq meydanda, tonqal kənarında keçirən vətəndaşlarımız sırasında on minlərlə Azərbaycan qadını da vardı.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş Sovet ordusunun, erməni quldur dəstələri ilə birgə Azərbaycan xalqına qarşı həyata keçirdiyi Qanlı Yanvar faciəsində də Azərbaycan qadını adını tarixin yaddaşına qızıl hərflərlə yazdı. Həmin faciəli günlərdə öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan cəsur vətən övladları canlarından keçərək, şəhidlik zirvəsinə ucaldılar. Hərbi təcavüz nəticəsində Bakıda 134 mülki vətəndaş öldürüldü, 600-dən çox adam yaralandı. Öldürülənlər arasında 20-dən çox qadın və uşaq vardı.

O ağır illərdə işğalçı Ermənistanın Azərbaycan dövlətinə qarşı apardığı qanlı müharibə, vətəni candan əziz tutan igid Azərbaycan övladlarının apardığı haqq savaşı da Azərbaycan qadınları üçün ağır sınaq dövrü oldu. Minlərlə ana bu döyüşlərdə oğul itirdi, minlərlə ailə başsız qaldı.

1992-ci ilin 26 fevralında ermənilər azərbaycanlılara qarşı bəşər tarixinin ən dəhşətli cinayətlərindən birini - Xocalı soyqırımını törətdilər. Həmin gün Xocalıda qətlə yetirilən 613 nəfər dinc sakindən 83-ü uşaq, 106-sı qadın, 70-i isə yaşlı idi. Xocalı soyqırımında 8 ailə tamamilə məhv edildi. 1275 nəfər girov götürüldü. 150 adam itkin düşdü. Ermənilərin Xocalıda törətdikləri dəhşətlərdən hamilə qadınlar və körpələr belə kənarda qalmadı. Xocalıda əsir götürülən Azərbaycan qadınları min bir zillətlə üzləşdilər. Bu zillətləri yaşamamaq üçün son çarəni intiharda tapanlar belə oldu.

Erməni qəsbkarlarının Azərbaycan ərazisinin 20 faizini işğal etmələri nəticəsində, öz doğma ev-eşiyindən didərgin düşmüş bir milyona qədər Azərbaycan vətəndaşı arasında qadınların sayı çoxdur. Qarabağ müharibəsinin nəticələrindən doğan əsas problemlərin, o cümlədən, qaçqınlıq və köçkünlük həyatının ağırlığı başlıca olaraq qadınların - anaların, bacıların, qız-gəlinlərin üzərinə düşdü. Amma Azərbaycan qadını yenə sınmadı, əyilmədi. Qəddini dikəldərək, ismətini həyatından uca tutan ana və bacılarımızla, Dağlıq Qarabağ savaşında şəhidlik şərbətini içmiş Salatın Əsgərova, Gültəkin Əsgərova, Qaratel Hacımahmudova kimi qəhrəman zəriflərimizlə möhtəşəm tarix yazdı.

Bu adlar hər kəsin öyünə biləcəyi qürur abidələridir. Gələcək nəsillərin də bu qəhrəmanları daha yaxından tanımaları üçün bu kitabda onların ömürlüyü haqqında, az da olsa, məlumat verməyi özümüzə borc bilirik.

Salatın Əziz qızı Əsgərova 1961-ci ildə Bakıda anadan olmuşdur. Azərbaycan Neft və Kimya İnstitutunu bitirmişdir. Sonralar jurnalist kimi fəaliyyət göstərmiş, "Molodyoj Azerbaydjana" qəzetində çalışmışdır.

"Milliqəhrəman.az." saytında göstərilir ki, 1991-ci il yanvarın 9-u Laçından Şuşaya yollanarkən, yolun 6-cı kilometrliyindəki Qaladərəsi kəndi yaxınlığında erməni silahlı qüvvələrinin mühasirəsinə düşmüş, içərisində olduğu maşın yaxın məsafədən şiddətli atəşə tutulmuşdur. Nəticədə, istedadlı jurnalist və Azərbaycanın qeyrətli qızı Salatın Əsgərova amansızcasına qətlə yetirilmişdir. Ailəli idi, bir oğlu var. Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli 294 saylı Fərmanı ilə Əsgərova Salatın Əziz qızına ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adı verilmişdir .

"Azadqadın.az." saytında göstərilir ki, Gültəkin Məlik qızı Əsgərova isə 20 noyabr 1960-cı ildə anadan olmuş, Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmişdir. Əmək fəaliyyətinə 8 №-li təcili yardım stansiyasında başlamış, 1991-ci ildən Uroloji Kliniki Xəstəxanada işləmişdir. 1992-ci ilin aprelindən cəbhəyə könüllü yollanmışdır. Turşsu, Şuşa xəstəxanalarında, Ağdamın Mahrızlı kəndindəki hospitalda hərbi həkim kimi fəaliyyət göstərmişdir. Aranzəmin yüksəkliyi uğrunda gedən döyüşlərdə 19 iyul 1992-ci ildə qəhrəmancasına həlak olmuşdur .

Mələykə Səma "Qazağın qeyrət qalası" (Bakı: Adiloğlu, 2003) kitabında yazır: "Dağlıq Qarabağ döyüşlərində həyatını itirən qəhrəman xanımlarımızdan biri də Qaratel Şəmi qızı Hacımahmudovadır. O, 1948-ci ildə Qazax mahalının Aşağı Əskipara kəndində doğulmuşdur. 1965-ci ildə Bakı Ticarət Texnikumunu bitirmiş, 1970-ci ilə qədər Gəncə Şəhər Ticarət Mərkəzində işləmişdir. 1976-cı ildə Xalq Təsərrüfatı İnstitutunun Əmtəəşünaslıq fakültəsini başa vurmuşdur. 1976-cı ildən 1991-ci ilədək Elmlər Akademiyasının Ceyrançöldə fəaliyyət göstərən Azərbaycan Neft Kəşfiyyatı İdarəsində laborant işləmişdir. 80-ci illərin sonlarından başlayaraq, Meydan hərəkatında yaxından iştirak etmiş, sonradan Qazax rayonunun müdafiəsində böyük qəhrəmanlıqlar göstərmişdir. 1992-ci ilin 14 iyununda ermənilərin Aşağı Əskipara kəndinə hücumu zamanı sona qədər döyüşmüş, sonda düşmən əlinə keçməmək üçün özünü öldürmüşdür".

1994-cü ildə milli qəhrəman statusunun müzakirəsinə həsr edilmiş iclasların birində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev demişdi: "...Milli qəhrəman adı kimə verilməlidir... Qazaxda bir Qaratel vardı, düşmən əlinə sağ keçməsin deyə özünü öldürmüşdü. Bax, əsl milli qəhrəman adı o xanıma layiqdir".

Bu, Vətən savaşında canından keçmiş qəhrəman qadına münasibətdə Heydər Əliyevin ümumən Azərbaycan qadınına verdiyi yüksək qiymət idi. Ümummilli Lider bu qiyməti müstəqil Azərbaycana rəhbərliyi dövründə dövlətin həyata keçirdiyi qadın siyasətinin təməl prinsipinə çevirdi.

Azərbaycanın döyüşə qatılan ilk qadın aktrisası Şükufə Musayeva 1988-ci ildə Şuşa Mədəni-Maarif Məktəbinin özfəaliyyət teatr kollektivinin rəhbəri fakültəsini, 1995-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin teatr kollektivinin rejissoru fakültəsinin qiyabi şöbəsini bitirib. 1990-cı ildən Şuşa Dövlət Musiqili Dram Teatrının aktrisasıdır. 1991-1993-cü illərdə Qarabağ uğrunda gedən döyüşlərdə iştirak edib. O, Azərbaycanın döyüşə qatılan ilk qadın aktrisasıdır. Ş.Musayevanın neçə-neçə tamaşada yaratdığı rollar hafizələrdə unudulmaz izlər buraxıb. Onun Telli ("Arşın mal alan", Üzeyir Hacıbəyov), Nailə ("Özümüz bilərik", S.Ələsgərov və Ş.Qurbanov), Nisə ("Durna", S.Rüstəmov və S.Rüstəm), Gülcamal ("Ayının min bir oyunu", S.Qənizadə), Marqarita ("Marqaritka", A.Salakru), Məkkə ("Gözəlləri necə qaçırırlar", B.Appayev), Hind şahzadəsi və saray əyanı ("Xəlifə Leylək", V.Qauf), Susanna ("Aydın", C.Cabbarlı), Qadın və dəli ("Ağıllı adam", F.Mustafa), Güləndam nənə ("Şuşa dağlarını duman bürüyüb", Elçin), Berta ("Sehirli kreslo", F.Karinti), Gülzar ("Pənah evi", Ə.Quluzadə), Fəxründə xanım ("Bayramın birinci günü", N.Hikmət), Şərəf xanım ("Tamahkar", S.S.Axundov), Sona xanım ("Dağılan tifaq", Ə.Haqverdiyev), Xurşid Banu Natəvan ("Güllələnmiş heykəllərin fəryadı", H.Mirələmov) obrazları müxtəlif səpgili olsa da, aktrisa bu rolların öhdəsindən məharətlə gəlməyi bacarıb.Ş.Musayeva 1998-ci ildə keçirilən II Ümumrespublika Eksperimental Tamaşalar Festivalında Ana ("Addım səsləri", S.Bekket), 1999-cu ildə keçirilən "Milli klassika" Festivalında Şəhrəbanu xanım ("Hekayəti-Müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah caduküni-məşhur", M.F.Axundov), 2002-ci ildə keçirilən A.Şərifzadə adına "Üfüq-XX1" Mono Tamaşalar Festivalında Uşaq ("Çiçəklər açılanda", A.Həsənoğlu), 2005-ci ildə keçirilən "Boş məkanın dolğunluğu" Teatr Festivalında Qadın ("Musiqili məktublar", F.Mustafa) kimi müxtəlif xarakterli rollar oynayaraq, Azərbaycan Teatr Xadimləri İttifaqı tərəfindən diplom və mükafatlara layiq görülüb. 25 iyun 2013-cü ildə "Tərəqqi" medalı ilə təltif edilib. 2003-cü ildə, 9 may 2012-ci ildə, 30 aprel 2014-cü ildə, 6 may 2015-ci ildə, 6 may 2016-cı ildə,1 may 2017-ci ildə və 9 may 2018-ci ildə Prezident Mükafatına layiq görülüb. 2000-ci ildə Əməkdar artist, 27 may 2018-ci ildə Azərbaycanın Xalq Artisti fəxri adlarını alıb.

2018-ci il martın 16-da Azərbaycan İstiqlal Muzeyində "Zəiflərin qüvvəsi-qadınlar Qarabağ müharibəsində" adlı sərgi-tədbir keçirilmişdir.

Mədəniyyət və Turizm Nazirliyinin Muzeylə birlikdə keçirdiyi sərgi-tədbirdə Qarabağ müharibəsi Veteran Qadınlar Birliyinin arxivi, eyni zamanda, Azərbaycanın Milli Qəhrəmanları -Salatın Əsgərovanın və Gültəkin Əsgərovanın şəxsi əşyaları və sənədləri, rəssam Kamil Ramazanovun "Azərbaycanın mərd qadınları" adlı triptixi ilk dəfə nümayiş etdirilir. Muzeyin direktoru Fəridə Şəmsi tədbiri açaraq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zəminində baş verən müharibədə qadınlarımızın mərd oğullarımızla çiyin-çiyinə rəşadətlə döyüşdüklərindən ətraflı bəhs etmişdir. Milli qəhrəmanlarımızın sırasında qadınlarımızın da olduğunu xatırladan natiq bu mübarizədə onların heç də kişilərdən geri qalmadıqlarını vurğulamışdır. Müxtəlif təşkilatların nümayəndələri tədbirin əhəmiyyətindən danışmış, qadın qəhrəmanlarımız barədə xatirələri söyləmişlər.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*